İ.S.Turgenev

# ATALAR və OĞULLAR

Tərcüməçi:
Mikayıl Rzaquluzadə

qanun nəşriyyatı

И.С.Тургенев

# ОТЦЫ и ДЕТИ

Köhnə həqiqətlər önündə əyilməmə... Faydalı olanın gözəl olandan üstünlüyü... Daşlaşmış ehkamlardan imtina... XIX əsrin 60-cı illərində bu idealları anlayan vardımı görəsən?.. Romanın cavabı belədir: bəli! Çünki əsərin baş qəhrəmanı Yevgeni Bazarov tez bir zamanda gənclərin kumirinə çevrildi. Həmin dövrdə ictimai-siyasi radikalizm kifayət qədər güclü idi. Lakin müəllif bu mövzuya toxunmur. Beləliklə, Bazarov surəti öz dövrünün əhvali-ruhiyyəsini əks etdirən bir tip kimi axıracan açılmır. Əsər isə bütövlükdə bu çatışmazlığın öhdəsindən gəlir. Öz zamanını qazanmaqla başqa zamanların da ölməz yaradıcılıq nümunəsinə çevrilir.

**И.С.Тургенев ОТЦЫ И ДЕТИ**
**İ.S.Turgenev ATALAR VƏ OĞULLAR**
Bakı, Qanun Nəşriyyatı, 2024, 240 səh.

Janr: fiction/roman
Yaş qrupu: 13+
Ölçü: 145x210 mm
Cild: yumşaq
Çapa imzalandı: 29.06.2024

Naşir: Şahbaz Xuduoğlu
Tərcüməçi: Mikayıl Rzaquluzadə
Korrektorlar: Elnarə Əhmədova, Elnarə Kərimova
Texniki redaktor: Aydın Səlimli
Mətn dizaynı: Rahilə Şamil
Qapaq dizaynı: Rafael Qasım

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-26-806-5

© Qanun Nəşriyyatı, 2014; 2020; 2024
© Gənclik, 1981

*Vissarion Qriqoryeviç Belinskinin*
*xatirəsinə ithaf olunur*

# I

1859-cu il mayın 20-də şose yolun üstündəki karvansaranın alçaq səkisinə başıaçıq, əynində tozlu palto, dama-dama şalvar olan qırx yaşlarında bir ağa çıxıb, çənəsində ağımtıl narın tük bitmiş dolusifət, xırda və sönükgözlü cavan nökərindən soruşdu:

– Hə! Pyotr! Hələ görünmür ki?

Nökərin hər bir şeyi-həm qulaqlarındakı firuzə sırğası, həm rəng-bərəngə çalan yağlanmış saçları, həm nəzakətli hərəkətləri – hər şeyi onun təkmilləşmiş yeni nəslə mənsub olduğunu göstərirdi. O , itaətlə yola nəzər salıb cavab verdi:

– Xeyr, ağa, görünmür.

– Görünmürmü? – ağa təkrar soruşdu.

– Görünmür, – nökər ikinci dəfə cavab verdi.

Ağa köksünü ötürüb skamyaya oturdu. O, ayağını altına qatlayıb, dalğın nəzərlə ətrafı seyr etməkdə olsun, biz oxucunu onunla tanış edək.

Onun adı Nikolay Petroviç Kirsanovdur. Bu karvansaranın on beş verstliyində onun iki yüz nüfuza malik yaxşı bir mülkü, ya da

öz dediyi kimi, torpağını kəndlilərdən ayırdıqdan sonra düzəltdiyi "ferma"sı var. Atası 1812-ci ilin hərbi generallarından olub, kəmsavad, kobud olsa da, kinsiz bir rus idi. O, bütün ömrüboyu orduda əziyyət çəkmiş, əvvəl briqadaya, sonra diviziyaya komandanlıq etmiş və həmişə də əyalətdə yaşayıb, orda da öz mənsəbi sayəsində kifayət qədər görkəmli rol oynamışdı. Nikolay Petroviç də, irəlidə haqqında danışacağımız böyük qardaşı Pavel kimi Rusiyanın cənubunda doğulmuş, on dörd yaşına qədər evdə, ucuz mürəbbilər, sırtıq, amma yaltaq adyutantlar və sair polk, qərargah adamları arasında tərbiyə almışdı. Anası Koşyazinlər soyadından olub, qızlığında Agathe, general arvadı olandan sonra isə Aqafokleya Kuzminişna Kirsanova adı almışdı. O, "komandir xanımlarından" olub, başına bəzəkli çutqu qoyar, əyninə xışıldayan ipək paltar geyinər, kilsədə xaçı öpməyə hamıdan qabaq yaxınlaşar, uca səslə, həm də çox danışar, səhərlər uşaqlarına əlini öpdürər, gecə onlara xeyir-dua verərdi, xülasə, ləzzətlə ömür sürərdi. Nikolay Petroviç nəinki cürətli deyildi, hətta "qorxaq" ləqəbi qazanmışdısa da, general oğlu olduğu üçün, qardaşı Pavel kimi, hərbi xidmətə girməli idi. Lakin hərbi xidmətə qəbul edildiyi xəbəri gələn gün yıxılıb ayağı sınmışdı. İki ay yataqda yatdıqdan sonra, bütün ömrü boyu axsaq qalmışdı. Atası ondan əlini üzüb, onu mülki xidmətə qoydu. Nikolay Petroviçin on səkkiz yaşı tamam olan kimi, isə onu Peterburqa aparıb universitetə qoymuşdu. Qardaşı isə bu zaman qvardiya polkuna zabit keçmişdi. Cavanların hər ikisi bir mənzildə, analarının əmisi olan böyük məmur İlya Kolyazinin uzaqdan nəzarəti altında yaşamağa başlamışdılar. Ataları öz diviziyasına, arvadının yanına qayıtmış və oğlanlarına yalnız hərdənbir qol-budaqlı mirzə xətti ilə yazılmış, dörddə bir kağız təbəqəsi ölçüsündə böyük, boz məktublar göndərərdi. Bu kağızların sonunda "Pyotr Kirsanov, general-mayor" sözləri səylə çəkilmiş naxış kimi gözə çarpardı. 1835-ci ildə Nikolay Petroviç universiteti namizəd adı ilə qurtarıb, həminildə baxış zamanı general Kirsanov müvəf-

fəqiyyətsizliyə uğradığı üçün, ordudan azad edilib, arvadı ilə birlikdə Peterburqa yaşamağa gəlmişdi. O, Tavriçeski bağı yanında ev tutub, ingilis klubuna[1] üzv yazılmış və qəfildən ölmüşdü. Aqafokleya Kuzminişna da çox keçmədən onun ardınca getmişdi: o, ağır paytaxt həyatına dözə bilməmişdi, istefaya çıxmış general arvadı kimi yaşamaq əzabı onun ürəyini yemişdi. Bu müddətdə isə Nikolay Petroviç hələ ata-anasının sağlığında və onların xeyli narazılığına səbəb olaraq, öz keçmiş mənzil sahibi məmur Prepolovenskinin gözəl, necə deyərlər, inkişaf etmiş və jurnalların "elm" şöbəsində ciddi məqalələr oxuyan qızına aşiq olmuşdu. Yas yığışan kimi, o, həmin qızla evlənmiş və atasının tanışlıq yolu ilə onu qoyduğu Ərazi Nazirliyindən çıxıb, öz Maşası ilə birlikdə, əvvəlcə Meşə İnstitutu yaxınlığındakı yaylaqda, sonra şəhərdə, təmiz pillələri və sərin qonaq otağı olan kiçik, gözəl bir mənzildə, nəhayət, kənddə kef çəkməyə başlamışdı. Çox keçmədən, buradaoğlu Arkadi doğulmuşdu. Ər-arvad çox yaxşı və dinc yaşayırmışlar. Onlar, demək olar ki, heç vaxt bir-birindən ayrılmamışlar, bilikdə kitab oxuyar, birlikdə dörd əllə fortepiano çalar, duet oxuyarmışlar. Arvadı çiçək əkər, ev quşlarına baxar, kişi arabir ova çıxar, təsərrüfatla məşğul olarmış. Arkadi də günü-gündən yaxşı və sakitcə böyüyərmiş. On il bir yuxu kimi gəlib-keçmişdi. Kirsanovun arvadı 47 yaşında ölmüşdü. O, bu zərbəyə çətin dözmüş və bir neçə həftə ərzində başı ağarmışdı. Fikrini bir qədər dağıtmaq üçün xarici ölkələrə getmək fikrinə düşmüş, lakin bu zaman 48-ci il gəlib çatmışdı. O, istər-istəməz, kəndə qayıdıb, vaxtını uzun müddət işsiz-gücsüz keçirdikdən sonra təsərrüfatı yenidən qurmaq işləri ilə məşğul olmağa başlamışdı. 55-ci ildə oğlunu universitetə aparmışdı. Üç qış onunla Peterburqda qalıb, demək olar ki, heç bir yerə çıxmamış və Arkadinin cavan yoldaşları ilə tanış olmağa çalışmışdı. Axırıncı qışı o, Peterburqa gələ bilməmişdi. Odur ki, biz indi onu

[1] İngilis klubu elə bir klub idi ki, ora yalnız ən varlı, nəcabətli mülkədar və əyanlar üzv ola bilərdi.

1859-cu ilin mayında, artıq başı tamam ağarmış, bədəni şişman, beli azacıq bükülmüş bir halda görürük. O, bir zaman özü kimi namizəd adı almış oğlunun gəlməsini gözləyir.

Nökər nəzakətdənmi, bəlkə də ağasının gözü önündə qalmaq istəmədiyindənmi, darvazanın arxasına keçib çubuğunu yandırdı. Nikolay Petroviç başını aşağı salıb, səkinin köhnə pillələrinə baxmağa başladı: iri çil-çil cücə böyük sarı ayaqlarını tappıldada-tappıldada, təmkinlə pillələrin üstündə gəzirdi; kirli bir pişik nazla məhəccərə qısılaraq acıqlı-acıqlı ona baxırdı. Gün yandırırdı, karvansaranın yarı-qaranlıq dəhlizindən isti çovdar çörəyinin qoxusu gəlirdi. Bizim Nikolay Petroviç xəyal aləminə getdi. "Oğlu... namizədi... Arkaşa..." bu fikirlər onun başında fasiləsiz dolaşırdı. O, başqa bir şey barəsində düşünmək istəyirdisə də, yenə həmin fikirlərin üstünə qayıdırdı. Mərhum arvadı yadına düşürdü… "Bu günü görmək ona nəsib olmadı" – deyə qəmgin halda pıçıldadı… Kök, göy bir göyərçin uçub yola qondu və su içmək üçün tələsik quyunun yanındakı gölməçəyə getdi. Nikolay Petroviç ona baxmağa başladı. Artıq yaxınlaşmaqda olan təkər taqqıltısı onun qulağına çatırdı...

Nökər darvazanın arxasından çıxıb dedi:

– Ağa, yəqin gələn onlardır.

Nikolay Petroviç yerindən sıçrayıb gözlərini yola zillədi. Üç poçt atı qoşulmuş bir tarantas göründü, tarantasın içində tələbə furajkasının kənarı, sevimli və əziz üzün tanış cizgiləri nəzərə çarpdı...

– Arkaşa, Arkaşa, – Kirsanov çığıra-çığıra, əl-qolunu yelləyə-yelləyə yüyürdü...Bir neçə andan sonra onun dodaqları artıq cavan namizədin tüksüz, tozlu və gündən yanmış yanaqlarına yapışdı.

# II

Atasının nəvazişlərinə cavab olaraq, Arkadi yol gəldiyinə görə bir az əzgin olsa da, cingiltili gənc səsilə deyirdi:

– Atacan, barı qoy bir üst-başımın tozunu çırpım, axı üst-başını tamam bulayaram.

Nikolay Petroviç mehriban-mehriban gülümsəyərək:

– Eybi yoxdur, eybi yoxdur, – deyə təkrar edə-edə, bir-iki dəfə oğlunun şinelinin yaxasını və öz paltosunu əli ilə çırpdı.

– Dur, bir boy-buxununu görüm, dur, bir baxım, – deyə əlavə edib, bir az geri çəkildi və "Bir gəl bəri, atları tez qoşmaq lazımdır" – deyə-deyə tələsik addımlarla dərhal karvansaraya getdi.

Nikolay Petroviç öz oğlundan xeyli həyəcanlı görünürdü, sanki bir qədər özünü itirmiş, qorxmuşdu. Arkadi onu dayandırıb dedi:

– Atacan, icazə ver, səni əziz dostum Bazarovla tanış edim, onun barəsində sənə çox tez-tez yazırdım. O, elə mehribandır ki, gəlib bir müddət bizdə qonaq qalmağa razılıq vermişdir.

Nikolay Petroviç cəld dönüb, əynində qotazlı uzun balaxon olan, tarantasdan indicə düşən ucaboy adama yaxınlaşdı və onun ağır-ağır çıxarıb uzatdığı qızarmış əlini möhkəm sıxdı.

– Ürəkdən şadam, – deyə o sözə başladı, – və bizə təşrif gətirmək kimi xoş niyyətinizə təşəkkür edirəm. Ümidvaram ki... adınızı və atanızın adını soruşmağa icazə verərsiniz...

– Yevgeni Vasilyev, – Bazarov kəsalətlə, lakin mərdanə bir səslə cavab verib, balaxonunun boyunluğunu qatladı və bütün üzünü Nikolay Petroviçə göstərdi.

Onun gen alnı, yuxarısı yastı, ucu biz burnu, iri, yaşılımtıl gözləri, qum rəngdə, sallaq yarımsaqqalı, uzunsov və arıq üzü sakit bir təbəssümlə canlanır, onun özünə əmin və ağıllı olduğunu ifadə edirdi.

– Əziz Yevgeni Vasiliç, ümidvaram ki, bizdə darıxmazsınız, – deyə Nikolay Petroviç sözünə davam etdi.

Bazarovun zərif dodaqları azacıq tərpəndi, ancaq özü heç bir söz deməyib, yalnız furajkasını bir balaca qaldırdı. Onun uzun və qalın, xurmayı saçları başının iri fırlarını örtüb gizlətmirdi.

Nikolay Petroviç yenə oğluna tərəf dönüb soruşdu:

– Necə deyirsən, Arkadi, atları indi qoşdurummu? Yoxsa dincəlmək istəyirsiniz?

– Atacan, evdə dincələcəyik, buyur qoşsunlar.

– Bu saat, bu saat, – atası tez cavab verdi.

– Ey, Pyotr, eşidirsənmi? Qardaş, tapşır qoşsunlar, tez ol!

Mükəmməl tərbiyə almışbir nökər olan Pyotr öz ağazadəsinin əlini öpməyə tələsməyib, yalnız uzaqdan ona təzim etdi və yenə də darvazanın arxasına keçib gözdən itdi.

Nikolay Petroviç qayğıkeşliklə dilləndi:

– Mən bura araba ilə gəlmişəm, ancaq sənin tarantasın üçün də üç at var, – bu zaman Arkadi karvansara sahibinin gətirdiyi dəmir parçdan su içirdi. Bazarov isə çubuğunu çəkə-çəkə, atları açmaqda olan sürücünün yanına getdi.

– Ancaq araba ikinəfərlikdir, odur ki, bilmirəm sənin dostun...

Arkadi ahəstə səslə:

– O, tarantasda gedər, – deyə atasının sözünü kəsdi.

– Sən onunla çox da rəsmi rəftar eləmə. O, çox gözəl oğlandır, o qədər sadədir ki, özün görəcəksən.

Nikolay Petroviçin sürücüsü atları çıxartdı.

Bazarov sürücüyə dedi:

– Hm, yekəsaqqal, cəld tərpən görək.

– Mityuxa, eşitdinmi ağa səni nə adla çağırdı, – deyə oradaca durub əllərini kürkünün arxa ciblərinə qoymuş başqa bir sürücü dilləndi.

– “Yekəsaqqal”, lap elədir ki, var.

Mityuxa yalnız papağını silkələyib, tərləmiş orta atın cilovunu çəkdi.

– Uşaqlar, tez olun, cəld olun, kömək edin, – deyə Nikolay Petroviç səsləndi, – araq pulu var ha!

Bir neçə dəqiqəyə atlar qoşuldu, ata ilə oğul arabaya mindilər. Pyotr qozlaya çıxdı, Bazarov tarantasa atıldı, başını meşin balışa söykədi və hər iki qoşqu yola düşdü.

## III

– Deməli, belə, axır ki, namizəd olub evə qayıtdın, – deyə Nikolay Petroviç əlini Arkadinin gah çiyninə, gah dizinə vururdu.

– Axır ki...

Arkadi ürəyi uşaq kimi səmimi bir sevinclə dolu olmasına baxmayaraq, söhbəti həyəcanlı mövzudan adi mövzuya keçirmək istəyərək soruşdu:

– Əmim necədir? Salamatdırmı?

– Sağ-salamatdır. Mənimlə bərabər səni qarşılamağa gəlmək istəyirdi, ancaq nədənsə, fikrini dəyişdi.

Arkadi soruşdu:

– Burada məni çoxmu gözlədin?

– Bəli, beş saata qədər olar.

– Mənim mehriban atacığım!

Arkadi cəld atasına tərəf çevrilib, marçıltı ilə onun yanağından öpdü. Nikolay Petroviç yavaşca güldü və:

– Heç bilirsən sənə nə gözəl at hazırlamışam? – deyə sözə başladı, özün görəcəksən. Otağına da kağız çəkdirmişəm.

– Bazarov üçün də otaq varmı?

– Onun üçün də tapılar.

– Atacan, xahiş edirəm, ona mehriban davran. Onunla dostluğumu nə qədər qiymətləndirdiyimi sənə sözlə ifadə etməkdə acizəm.